Action funded by
the European Union

EU4Environment
Armenia, Azerbaijan, Belarus, Georgia, Republic of Moldova, Ukraine

# Strateji ekoloji qiymətləndirmənin (SEQ) regional və məkani planlaşdırmaya praktik tətbiqinə dair təlim

## Gündəlik layihəsi

**26-27 aprel 2021-ci il**
**Bakı, Azərbaycan**

COVID-19 pandemiyası ilə əlaqədar olaraq, bu tədbir Zoom platformasından istifadə edilməklə virtual tədbir kimi keçiriləcək. Qeydiyyatdan keçmiş bütün iştirakçılar platformaya daxil olmaq üçün bağlantı məlumatları ilə təmin ediləcəklər.

Action implemented by:

OECD BETTER POLICIES FOR BETTER LIVES | UNECE | UN environment programme | UNIDO | THE WORLD BANK IBRD • IDA | WORLD BANK GROUP

# Strateji ekoloji qiymətləndirmənin (SEQ) regional və məkani planlaşdırmaya praktik tətbiqinə dair təlim

**26-27 aprel 2021-ci il**
**Bakı vaxtı ilə 14:00**

## Ümumi məlumat

Strateji ekoloji qiymətləndirmə (SEQ) ətraf mühit, iqlim və sağlamlıq məsələləri nəzərə alınmaqla, ətraf mühitə ciddi təsirlərə malik ola biləcək çoxsaylı dövlət planlarının, proqramlarının və digər strateji sənədlərin (məsələn, torpaqlardan istifadə, nəqliyyat, enerji, tullantılar, kənd təsərrüfatı və s. Ilə əlaqədar dövlət planlarının layihəsi) hazırlanmasını təmin etmək məqsədilə tətbiq edilən praktik və səmərəli planlaşdırma və ekoloji idarəetmə mexanizmi olaraq qəbul edilir. Azərbaycan ətraf mühiti qorumaqla və ətraf mühitin vəziyyətini yaxşılaşdırmaqla yanaşı, maksimum dayanıqlı və iqtisadi baxımdan maksimum sərfəli strateji inkişaf alternativlərinin müəyyənləşdirilməsinə və yeni investisiyaların cəlb edilməsinə imkan yaratmaq məqsədilə, UNECE-nin "Transsərhəd kontekstində ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) haqqında" Konvensiyasının (Espo Konvensiyası) SEQ-ə dair Protokolunda və Avropa İttifaqının SEQ-ə dair Direktivində (2001/42/EC) əks olunmuş prinsip və prosedurlara uyğun şəkildə SEQ həyata keçirir. SEQ effektiv şəkildə tətbiq edildikdə şəffaflığı artırmaqla, həmçinin plan və proqramların təsdiq edilməsinədək müvafiq maraqlı tərəflərlə və ictimaiyyətlə məsləhətləşməni genişləndirməklə eyni zamanda ölkənin ekoloji idarəetməsini gücləndirməyə kömək edir. Transsərhəd kontekstində SEQ də həmçinin ətraf mühit məsələlərində regional əməkdaşlığa əhəmiyyətli dərəcədə kömək edə bilər. Ötən onilliklərdə baş vermiş ciddi irəliləyiş və mövcud geniş təcrübə (xüsusilə, Avropa İttifaqı ölkələrinin təcrübəsi) sayəsində məkani planlaşdırma, o cümlədən regional planlar SEQ-in tətbiqinin ən geniş və ən əhatəli sahələrindən birinə çevrilmişdir.

Avropa İttifaqı tərəfindən maliyyələşdirilən EU4 Ətraf mühit proqramı çərçivəsində UNECE təşkilatı Şərq Tərəfdaşlığı ölkələrinə, o cümlədən Azərbaycana SEQ və transsərhəd ƏMTQ sahəsində bacarıqların kompleks şəkildə artırılmasında və institusional quruculuqda, həmçinin bu sahədəki hüquq islahatlarının yekunlaşdırılmasında kömək edir.

Lakin məqsədə nail olmaq üçün SEQ sahəsində ümumi institusional potensialın ciddi şəkildə daha da gücləndirilməsi tələb edildiyi üçün ölkədə SEQ-in praktikada tətbiqi kifayət qədər məhdud olaraq qalmaqdadır. Müvafiq prosedurlar və fəaliyyətlər, müxtəlif orqanların və maraqlı tərəflərin SEQ prosedurlarının həyata keçirilməsindəki müvafiq rolları və s. ilə bağlı bacarıqların və məlumatlılığın artırılması fəaliyyətləri vasitəsilə ətraf mühit, səhiyyə və sahəvi planlaşdırma orqanlarına dəstək göstərilməsinə ehtiyac hələ də qalmaqdadır.

UNECE 2004-cü ildən etibarən texniki yardım və SEQ və transsərhəd ƏMTQ sahələrində bacarıqların artırılmasına dəstək göstərməkdədir (o cümlədən Qafqazda). Bu dəstək 2013-2018-ci illərdə Avropa İttifaqı tərəfindən maliyyələşdirilən EaP GREEN proqramı çərçivəsində göstərilmişdir, hazırda isə EU4Environment proqramı çərçivəsində göstərilməkdədir.

Bu tədbir EU4 Ətraf mühit proqramının Azərbaycan üzrə işçi planı çərçivəsində SEQ-ə dair iki təlimdən birincisidir və işçi planda SEQ-lə əlaqədar nəzərdə tutulmuş digər fəaliyyətlərlə yanaşı, SEQ-in UNECE-nin SEQ-ə dair Protokoluna, Aİ-nin SEQ-ə dair Direktivinə və SEQ sahəsində milli qanunvericiliyə uyğun şəkildə daha sistemli və effektiv şəkildə tətbiqinə kömək

edəcək. Tədbir SEQ-in tətbiqinin olduqca vacib, lakin eyni zamanda spesifik və mürəkkəb sahəsini təşkil edən "SEQ-in Regional və məkani planlaşdırma kontekstində tətbiqi" mövzusuna həsr olunmuşdur. Tədbirin fasilitatorları UNECE-nin ətraf mühit üzrə məsləhətçiləri olacaqlar.

### Toplantının vəzifələri, gözlənilən nəticələri

Tədbirin əsas vəzifələri aşağıdakılardır:

- SEQ-in UNECE-nin SEQ-ə dair Protokolunun, Aİ-nin SEQ-ə dair Direktivinin və SEQ sahəsində milli qanunvericiliyin tələblərinə uyğun şəkildə Azərbaycanda tətbiqi üçün potensialın genişləndirilməsi.
- Ekologiya və Təbii Sərvətlər Nazirliyinə SEQ, SEQ sahəsində normativ baza və onun tətbiqi haqqında məlumatlılığı artırmaqda dəstək göstərmək;
- Əsas maraqlı tərəflərin iştirakına, həmçinin regional və məkani planlaşdırma kontekstində SEQ sahəsində təcrübə mübadiləsinə kömək etmək.

Tədbirin əsas maraqlı tərəflərin SEQ-in tətbiqi fəaliyyətlərində daha geniş iştirakına və SEQ-in Azərbaycanda praktik tətbiqinə dair ekspertlər səviyyəsində müzakirələrə kömək edəcəyi gözlənilir.

### İştirakçılar

Toplantı Ekologiya və Təbii Sərvətlər Nazirliyini, sahəvi nazirlikləri və qurumları, həmçinin bu sahədə fəal olan ətraf mühitlə bağlı QHT-ləri təmsil edən 40 nəfərədək iştirakçını bir araya gətirəcək.

### Faydalı məlumat

Toplantı Zoom vasitəsilə virtual tədbir kimi təşkil olunacaq. Qeydiyyatdan keçmiş bütün iştirakçılar platformaya daxil olmaq üçün bağlantı məlumatları ilə təmin olunacaq. İngilis və Azərbaycan dillərində sinxron tərcümə təmin ediləcək.

### EU4 Ətraf mühit proqramı haqqında

"Avropa İttifaqı ətraf mühit naminə" (EU4 Environment) proqramının məqsədi ətraf mühitlə bağlı tədbirlərə dəstək göstərməklə, ekoloji baxımdan daha təmiz inkişaf üçün imkanları nümayiş etdirməklə və aşkara çıxarmaqla, həmçinin ekoloji riskləri və təsirləri daha yaxşı idarə edə bilmək üçün mexanizmlər müəyyənləşdirməklə altı tərəfdaş ölkəyə - Ermənistan, Azərbaycan, Belarus, Gürcüstan, Moldova Respublikası və Ukraynaya öz təbii sərvətlərini qorumaqda və əhalisinin ekoloji rifahını yaxşılaşdırmaqda kömək etməkdir.

Bu Tədbir təqribən 20 milyon avroluq büdcə ilə Avropa İttifaqı tərəfindən maliyyələşdirilməkdə və beş Tərəfdaş təşkilat – OECD, UNECE, UNEP, UNIDO və Dünya Bankı tərəfindən həyata keçirilməkdədir. Tədbir 2019-2022-ci illərdə həyata keçiriləcəkdir.

Ətraflı məlumat üçün əlaqə: EU4Environment@oecd.org

Ətraflı məlumat üçün (xüsusilə, UNECE tərəfindən həyata keçirilən SEQ və transsərhəd ƏMTQ

sahəsində fəaliyyətlər haqqında) zəhmət olmasa, əlaqə saxlayın: leonid.kalashnyk@un.org

## GÜNDƏLİK

**1-Cİ GÜN, 26 aprel**

| Bakı vaxtı ilə | Maddə |
|---|---|
| 13:30 – 14.00 | Bağlantının yoxlanması (30 dəq) |
| 14:00 – 14.15 | **Salamlama nitqləri**<br>• Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nümayəndəsi (təsdiq ediləcək)<br>• Aİ-nin Azərbaycandakı Nümayəndəliyinin təmsilçisi (təsdiq ediləcək)<br>• Cənab Leonid Kalaşnik, EU4 Ətraf mühit proqramının Ətraf mühit məsələləri üzrə məsul şəxsi, UNECE-nin Layihə direktoru |
| 14:15 – 14:30 | **Toplantının vəzifələri və gündəliyi, iştirakçıların təqdimatı**<br>*Fasilitator UNECE-nin məsləhətçisi* |
| 14:30 – 15.00 | **Strateji ekoloji qiymətləndirmə (SEQ): Məqsəd, hüquq çərçivəsi, proses və faydalar**<br>• Vəzifə, prinsiplər və faydalar<br>• Prosedur addımları<br>• UNECE-nin SEQ-ə dair Protokolu, Aİ-nin SEQ-ə dair Direktivi<br>• Regionda tətbiqlə bağlı çətinliklər və imkanlar<br>*UNECE-nin məsləhətçisinin və UNECE-nin nümayəndəsi Leonid Kalaşnikin təqdimatları* |
| 15:00 – 15:15 | **Azərbaycanda SEQ: Qanunvericilik və praktik təcrübə**<br>• Son dövrlərdə SEQ sahəsində hazırlanmış milli hüquqi çərçivə<br>*Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin sektor müdiri, Espo Konvensiyası üzrə milli əlaqələndirici xanım Aysel Rzayevanın təqdimatı*<br>• SEQ-in Azərbaycanda sınaq məqsədilə tətbiqi sahəsində praktik təcrübə<br>*UNECE-nin milli məsləhətçisinin təqdimatı* |
| 15:15 – 15.30 | **Fasilə** |
| 15:30 – 16:15 | **SEQ və regional və məkani planlaşdırma**<br>• Planlaşdırma və SEQ çərçivəsində ətraf mühitin təhlili<br>• İmkanlar və çətinliklər<br>• Başlıca xarakterik ekoloji problemlər<br><br>*UNECE-nin məsləhətçisinin təqdimatı*<br>**Sual-cavab** |
| 16:15 – 17:00 | **Regional və məkani planlar üzrə SEQ: Real həyatdan götürülmüş seçilmiş nümunələr**<br>• Aİ və UNECE regionuna daxil olan ölkələrin (məsələn, Çex Respublikası, Slovakiya, Türkiyə) real SEQ-ləri əsasında nümayiş etdirilən yanaşmalar, metodlar, xarakterik vəzifələr, maraqlı problemlər |

| | |
|---|---|
| | **İnteraktiv müzakirə**<br>*Fasilitatorlar UNECE-nin məsləhətçiləri* |
| **17:00 – 17:10** | **1-ci günün yekun nitqləri**<br><br>*UNECE-nin nümayəndəsi Leonid Kalaşnik* |

**2-Cİ GÜN, 27 aprel**

| Bakı vaxtı ilə | Maddə |
|---|---|
| **13:45 – 14.00** | Bağlantının yoxlanılması (15 dəq) |
| **14:00 – 14.15** | **1-ci günün nəticələri**<br><br>*Fasilitator UNECE-nin məsləhətçisi* |
| **14:15 – 15:30** | **–Azərbaycanın hər hansı bir Şəhər Baş Planı üçün təklif edilən SEQ**<br>• Azərbaycanın seçilmiş bir Şəhər Baş Planı kontekstində SEQ prosesi, yanaşmalar, metodlar, xarakterik vəzifələr, mümkün problemlər və məsələlər<br><br>**İnteraktiv müzakirə – qrupda iş**<br>*Fasilitatorlar UNECE-nin məsləhətçiləri* |
| **15:30 – 15:45** | **Fasilə** |
| **15:45 – 16:30** | **Məkani planlaşdırmada SEQ: Əsas məsələlər**<br>• Ümumi və sinergetik təsirlər<br>• Dolayı təsirlər<br>• Qeyri-müəyyənliklər<br>• İctimaiyyətin iştirakı<br>• SEQ və qərar qəbuletmə<br><br>*UNECE-nin məsləhətçisinin təqdimatı*<br>**Sual-cavab** |
| **16:30 – 17:00** | **Yekun müzakirə**<br>• Tədbirdən öyrənilən əsas dərslər<br>• Azərbaycanda SEQ-lə bağlı növbəti tədbirlər nələrdir?<br><br>**İnteraktiv müzakirə**<br>*Fasilitator UNECE-nin məsləhətçisi və nümayəndəsi Leonid Kalaşnik* |
| | |